**UOT 001.95**

***Əliquliyev R.M.[1], Ağayev N.B.[2], Alıquliyev R.M.[3]***
AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1]rasim@science.az, [2]nadir_avia@yahoo.com, [3]a.ramiz@science.az

# PLAGİATLIQLA MÜBARİZƏNİN ELMİ VƏ TEXNOLOJİ ƏSASLARI: TƏKAMÜL YOLU VƏ MÜASİR VƏZİYYƏT

*Məqalədə plagiatlıq anlayışı cəmiyyətin tarixi inkişafı ilə paralel götürülərək tədqiq edilmiş, müxtəlif dövrlərdə cəmiyyətdə intellektual mülkiyyətin qorunmasının üsul və vasitələri araşdırılmışdır. Müasir dövrdə plagiatlıqla mübarizənin vəziyyəti, onun hüquqi və texnoloji aspektləri araşdırılmış, mövcud problemlər və onların həllinin əsas strateji istiqamətləri müəyyən edilmişdir.*

***Açar sözlər:*** *intellektual mülkiyyət, müəllif hüquqları, patent hüquqları, anonim plagiat, sifarişli plagiat.*

## Giriş

Yaşadığımız XXI əsrdə sürətli elmi-texniki inkişaf nəticəsində cəmiyyətdə insan-təbiət-insan münasibətlərində tamamilə yeni yanaşmalar yaranmağa başlamış və bu yanaşmalarda biliyin və mədəniyyətin funksiyasının özünü yeni formada təqdim etməsi ilə yanaşı, intellektual mülkiyyətin dəyəri kəskin yüksəlmiş, onun istifadəsinin miqyası, formaları və mənimsəmənin sürəti artmışdır. Hazırda intellekt bütövlükdə təbiət-cəmiyyət qarşılıqlı münasibətlərində ən əhəmiyyətli amilə çevrilmiş, "insanın idrak qabiliyyətləri" maddi kapitaldan daha əhəmiyyətli olmuş və iqtisadi dövriyyənin əsas parametrlərindən biri kimi qəbul edilmişdir.

Digər sahələrdən fərqli olaraq, burada mülkiyyət bilavasitə maddi olmadığına görə və daha çox subyektin mənəvi-sivil vəziyyətindən asılı olduğundan, onun qorunmasına yanaşmalar tam fərqlilik tələb edir. Təəssüflə qeyd etmək lazımdır ki, uzun illər bu sahədə tam durğunluq nəticəsində fundamental elmi-hüquqi tədqiqatların çatışmazlığı, cəmiyyətdə bu mülkiyyət forması haqqında təsəvvürlərin yoxluğuna gətirib çıxarmışdır. Nəticədə cəmiyyətdə bu istiqamətdə "hüquqpozmalar" heç də həmişə birqiymətli qarşılanmamış, əksər hallarda ona qarşı mübarizə aparmaqdansa, daha çox cəmiyyətin bu hüquqpozmalara adaptasiya olmaları müşahidə edilmişdir.

Plagiatlıqla mübarizə problemlərinə həsr edilmiş tədqiqatlar bu problemin ya ayrı-ayrı hüquqi anlayışlarının (müəllif hüquqları, patent hüquqları) müzakirəsinə həsr edilmiş [1–10], yaxud da onun müxtəlif aspektlərinin (hüquqpozmaların aşkarlanmasının texniki-nəzəri modelləri, İKT vasitəsi ilə hüquqpozmaların aşkarlanmasının metod və alqoritmləri və s.) [11–15] elmi-nəzəri araşdırmaları kimi verilmişdir. Hər iki halda cəmiyyətin əksər hissəsi bu tədqiqatların nəticələrindən bəhrələnmədiyindən problemin əsl mahiyyəti açılmamış qalır və yuxarıda qeyd etdiyimiz kimi, "kütləvi loyallıq" bu sahədə neqativ halların daha da çoxalmasına səbəb olur. Biz burada qeyd edilən hər iki çərçivədən kənara çıxmaqla, daha çox hamının qəbul etdiyi ümumi anlayışlarla intellektual mülkiyyətin elmi-tədqiqatlarda qorunması problemlərinin elmi-nəzəri aspektlərinə baxacağıq.

Elm və təhsil cəmiyyətin elə bir sahəsidir ki, onun bütün təbəqələrini bu və ya digər cəhətdən əhatə edir. Məhz bu səbəbdən elm və təhsildə baş verən hər hansı pozuntular bütövlükdə cəmiyyətin problemi kimi qəbul edilir. Qeyd edilən problemin aktuallığı ilk növbədə aşağıdakı zərurətdən irəli gəlir:

1. Respublikamızda informasiya texnologiyalarının inkişafının və insan resurslarının idarə edilməsinin əsas strateji istiqamət elan edilməsi [3, 11].
2. İqtisadiyyatın digər sahələrinə nisbətən İKT-nin daha böyük vüsətlə inkişafı onun imkanlarından istifadədə daha geniş «təhlükələr» yaradır [16, 17].

3. Ali məktəblərdə, elm müəssisələrində yerinə yetirilən işlərin əksəriyyətində plagiatlığın mövcudluğu respublikanın elm–təhsil sisteminin reytinqinə əsaslı dərəcədə zərbə vurur [1, 18].

**İntellektual mülkiyyət və plagiatlıq: tarixi-xronoloji araşdırma**

Sivilizasiyanın ilk dövrlərində intellektual – yaradıcılıq insanların təbiətlə mübarizəsi kontekstində birincinin daha çox yaşamaq uğrunda mübarizəsi zəminində baş verirdi. Yeni yaradılmış ovçuluq alətlərindən tutmuş, ərzaq məhsullarının toplanması və saxlanılmasında yeniliklər cəmiyyətin bütün üzvləri tərəfindən istisnasız olaraq istifadə edilirdi. Bu dövrlərdə yaradıcı konkret şəxs kimi deyil, cəmiyyətin bütün üzvləri qismində iştirak etdiyindən, ümumiyyətlə, "intellektual mülkiyyət" (İM) və onun qorunması anlayışları da mövcud deyildi (cədvəl 1).

Cədvəl 1

"İntellektual mülkiyyət" (İM) anlayışının tarixi təkamülü

| Tarixi dövr | İM-in təqdim forması | İM-in yaradılması zərurəti | İM hüququnun pozulması səviyyəsi | İM-in qorunma səviyyəsi |
|---|---|---|---|---|
| Cəmiyyətin ilk yazılı ədəbiyyata qədərki inkişaf dövrü | "İM" anlayışı olmamışdır.Yenilik maddi formada özünü büruzə verir. | İnsan-təbiət mübarizəsi. | Müəyyən edilmir.Yenilik bütün üzvlərə eyni dərəcədə aiddir. | Zərurət olmamışdır. |
| Yazının meydana gəlməsi – çap maşınının ixtirasına qədər | İM əlyazmalarla müəyyən edilir. | İM imtiyazlı şəxslərin sifarişi əsasında yaradılır. | Az hallarda baş verir. | Məhdud çərçivədə imtiyazlı şəxslərin təşəbbüsü ilə. |
| Çap maşınının ixtirası-intibah dövrü | İM çap edilən əsərlərlə müəyyən edilir. | İM ilk dəfə olaraq kommersiya mahiyyəti daşıyır. | Pozulma hallarının sayı sürətlə artır. | Məhdud çərçivədə yaradıcı şəxsin təşəbbüsü ilə. |
| Orta əsr– texniki inqilablar dövrü | İM çap edilən əsərlərlə yanaşı maddi-texniki sahəni də əhatə edir. | İM biznes fəaliyyəti formasına keçir. İlk dəfə olaraq "patent hüququ" anlayışı meydana çıxır. | Pozulma halları ayrı-ayrı şəxslər tərəfindən deyil, cəmiyyətin müəyyən qrupları tərəfindən həyata keçirilir. | Pərakəndə şəkildə, əsasən lokal miqyasda. |
| XX əsr–elmi-texniki nailiyyətlər | İM cəmiyyətin maddi nemətlərinin yaradıldığı bütün sahələri əhatə edir. | İM biznes fəaliyyəti formasına keçir. | Pozulma halları cəmiyyətin daha geniş qruplarını əhatə edir. | İM ayrı-ayrı dövlətlərdə hüquqi qanunlarla qorunur. |
| XX əsrin sonu-XXI əsr– informasiya cəmiyyəti dövrü | İM bəşəriyyətin maddi nemətlərinin yaradıldığı bütün sahələri əhatə edir. | İM beynəlxalq iqtisadi qurumların biznes fəaliyyətinin əsas formasına keçir. | Pozulma halları bir dövlətin əhatəsindən çıxıb, beynəlxalq miqyas alır. | İM-in qorunması beynəlxalq hüququn predmeti kimi qəbul edilir. |

Yazının meydana gəlməsi ilə cəmiyyətdə intellektual yaradıcılıq sahəsində inqilab baş verdi–yaradıcılıq maddi ifadə formasından qeyri-maddi formaya keçdi. İdeyaları yazıya almaqla, onlardan bəhrələnməyin üsul və vasitələri çoxaldı. Artıq insanların əməyini yüngülləşdirən hər hansı bir yeni vasitə, onu kəşf edənin iştirakı olmadan da həyata keçirilə bilərdi. Beləliklə, ilk dəfə olaraq başqalarının ideyalarından istifadə edərək cəmiyyətdə daha yaxşı mövqe tutmaq arzusunda olan insanlar meydana gəldi və bununla da cinayətin yeni növü–"ideya oğurluğu" yarandı. Antik dövrlərdən başlamış orta əsrlərə qədər bu problem cəmiyyətdə məhdud formada olsa da, hər halda özünü büruzə verirdi. Heç təsadüfi deyil ki, Aristotelin zərb-məsələ çevrilmiş "*Platon mənim dostumdur, amma həqiqət ondan da əzizdir*" ifadəsi həm də ideyaların əsl sahiblərinin tanınması mənasında da qəbul edilməlidir.

Çap maşınının ixtirası (1448-ci il) ilə ilk qəzet və jurnallar meydana gəldi (ilk elmi jurnal Fransada «Journal des Savants» (5 yanvar 1665-ci il) [19] adı ilə nəşr edilmişdir) və cəmiyyətin bütün sahələrində olduğu kimi, intellektual yaradıcılıq sahəsində də sürətli inkişafa səbəb oldu. Nəticədə istənilən əlyazma və ya onun maddi daşıyıcısı sürətlə və daha ucuz şəkildə çoxaldıla bilərdi, texniki yeniliklər daha tez tətbiq edilə bildiyindən biznes mübarizəsində daha çox gəlir gətirirdi. Bu dövrü Molyerin məşhur ifadəsi daha qabarıq təsvir edir: "Mən yaxşını harada tapıram, həmin yerdən də onu götürürəm" (fransızca: "*Je prends mon bien où je le trouve*"). Eyni hallar texniki elmlərdə də baş verirdi: riyaziyyatda, fizikada, kimyada bir çox "kəşflər" bu üsullarla qeydə alınmışdı [18]. Bununla da, həm bədii əsərlərin, həm də texniki yeniliklərin nailiyyətlərinə "xüsusi mülkiyyəti" aid etmək ehtiyacı yarandı. Patent hüququnun yaranmasına qədər hər kəs digəri tərəfindən edilmiş ixtiradan istifadə edə bilirdi.

İlk belə qanun 19 mart 1474-cü ildə Venesiyada qəbul edildi. Burada ilk dəfə olaraq müəllifin öz əsəri üzərində həm "mənəvi", həm də "mülkiyyət" hüququ tanınırdı və müəyyən məhdud zaman ərzində ona bu mülkiyyət üzərində sərəncam vermək hüququ verilirdi. Müəlliflik hüquqları aşağıdakı üç halda tanınırdı:

1. Əsər orijinal olmalıdır;
2. Venesiya Respublikası ərazisində yeni olmalıdır;
3. Sənaye əhəmiyyəti olmalıdır.

Bu qanun dövrünün ən mütərəqqi qanunu idi və heç də təsadüfi deyil ki, onun bir çox müddəaları hələ də öz aktuallığını itirməmişdir. Müasir anlamda müəlliflik hüququnu özündə təsbit edən qanun İngiltərədə 1623-cü ildə qəbul edilmişdir. 1710-cu ildə qəbul edilmiş qanunda isə ilk dəfə olaraq "kopirayt" prinsipi qəbul edilmişdir. Bu prinsipə görə müəllifin icazəsi olmadan ona məxsus yeni əsəri və ideyanı çoxaltmaq, tətbiq etmək qadağan edilirdi. "İntellektual mülkiyyət" termini isə ilk dəfə olaraq XVIII əsrin sonlarında Fransa qanunvericiliyində öz əksini tapmışdı. 1791 və 1793-cü il qanunlarında isə ilk dəfə olaraq dövrünün məlum olan istənilən növ yaradıcılıq məhsulları (incəsənət, elmi, texniki məhsullar) üzərində müəllifin hüquqları qorunurdu. Fransa mülki kodeksində bu barədə belə yazılmışdır: "Mülkiyyət sahibi mülkiyyət üzərində qanunlarla qadağan edilməmiş mütləq şəkildə sərəncam vermək və istifadə etmək hüququna malikdir. Mülkiyyət hüququnun hər hansı formada pozulması və ya məhdudlaşdırılması qanunla tənzimlənir". Fransa qanunlarında "intellektual yaradıcılıq" mülkiyyət formalarının ən müqəddəsi adlandırılırdı. Bu ideya eyni dövrdə ABŞ-ın bəzi ştatlarında (Massaçusets, 17 mart 1789-cu il qanunu) qəbul edilmiş qanunlarda da öz əksini tapmışdı [20]. Beləliklə, cəmiyyətdə elm və texnika inkişaf etdikcə, "intellektual mülkiyyət" anlayışı da sərhədlərini genişləndirərək, "xüsusi növ hüquq" kimi daha geniş sahəni əhatə edirdi. Bu xüsusi ilə özünü Almaniyanın qanunlarında göstərirdi. Məsələn, 1877-ci ildə qəbul edilmiş qanun o qədər mükəmməl və geniş sahəni əhatə edirdi ki, müəyyən dəyişiklik və əlavələrlə indiyə kimi qüvvədədir. Alman mülki kodeksində deyilir: "Mülkiyyət üzərində yalnız sahibinin istədiyi şəkildə sərəncam vermək və istifadə etmək hüququ var və digərlərinin buna hər hansı müdaxiləsi yolverilməzdir" [15].

Beləliklə, cəmiyyətdə iqtisadi əlaqələr genişləndikcə, mülkiyyətin xüsusi forması kimi İM-in nəinki məhdud bir ərazidə, həm də bu əlaqələrin mövcud olduğu bütün ərazilərdə qorunması zərurəti meydana çıxırdı. Nəticədə 1886-cı il "Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern konvensiyası" qəbul edildi və bir müddət beynəlxalq aləmdə bu sahədə mövcud qanunvericilikdə nizamlayıcı kimi dünya ölkələri tərəfindən istifadə edildi.

**Müasir dövrdə plagiatlıq**

XX əsrin ortalarından başlayaraq elektron hesablama qurğularının yaranması və inkişafı İM anlayışına yeni məna verməyə başladı. Artıq hər hansı ideyanın özünün fiziki anlamında deyil, həm də qeyri-fiziki üsulları ilə mənimsənilməsi səbəbindən, onun müəyyənləşdirilməsi problemləri yaranmağa başladı. 1952-ci il "Müəllif hüquqları haqqında Cenevrə Beynəlxalq Konvensiyası" [21, 22] və 1971-ci il "Paris Beynəlxalq Konvensiyası"[23, 24] müəllif hüquqlarının qorunması sahəsində irəliyə atılmış addım idi. 1967-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) [25, 26] yaradılması haqqında konvensiyanın qəbul edilməsi qanunvericilikdə ümumi prinsip və qaydaların yaranmasına səbəb oldu (cədvəl 2).

Cədvəl 2

İM-in qorunması ilə əlaqəli beynəlxalq hüquqi aktlar [5, 16, 21–25, 27–30]

| | Beynəlxalq müqavilənin adı | Qəbul edildiyi il |
|---|---|---|
| 1 | Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris konvensiyası | 1883-cü il |
| 2 | Ədəbi və bədii əsərlərin mühafizəsi haqqında Bern konvensiyası | 1886-cı il |
| 3 | Ticarət nişanlarının qeydiyyatları haqqında Beynəlxalq Madrid razılaşması | 1891-ci il |
| 4 | Sənaye nümunələrinin qeydiyyatı haqqında Beynəlxalq Haaqa razılaşması | 1925-ci il |
| 5 | Müəllif hüquqları haqqında Cenevrə Beynəlxalq Konvensiyası | 1952-ci il |
| 6 | Ticarət nişanlarının qeydiyyatı üçün malların və xidmətlərin təsnifatı haqqında Niç Beynəlxalq razılaşması | 1957-ci il |
| 7 | Məmulatların mənşəyinin və beynəlxalq qeydiyyatının qorunması haqqında Lissabon razılaşması | 1958-ci il |
| 8 | Sənaye nümunələrinin beynəlxalq təsnifatı haqqında Lokarn razılaşması | 1968 ci il |
| 9 | Elmi kəşflərin beynəlxalq qeydiyyatı haqqında Cenevrə müqaviləsi | 1978 -ci il |
| 10 | İntellektual mülkiyyət haqqında Vaşinqton müqaviləsi | 1989-cu il |
| 11 | Patent kooperasiyası haqqında müqavilə (PCT) | 1970-ci il |
| 12 | Patent təsnifatı haqqında Beynəlxalq Strasburq razılaşması | 1971-ci il |
| 13 | Müəllif hüquqları haqqında Paris Beynəlxalq Konvensiyası | 1971-ci il |
| 14 | Ticarət markaları üzrə qanunlar haqqında müqavilə (TLT) | 1994-cü il |
| 15 | Müəllif hüququ üzrə WIPO müqaviləsi | 1996-cı il |
| 16 | Patent hüququ haqqında müqavilə (PLT) | 2000-ci il |
| 17 | Ticarət markaları üzrə qanunlar haqqında Sinqapur müqaviləsi (TLT) | 2006-cı il |

Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" və digər qanunları bu sahədə münasibətlərin hüquqi tənzimlənməsini həyata keçirir.

Bütün dünya ölkələrində İM-in qorunmasının hüquqi bazası mövcud olsa da, hələ də bu hüquqların pozulmasına qarşı mübarizə əhəmiyyətli nəticələr vermir.

Məsələn, Cozefson institutunun dövlət və xüsusi mülkiyyətdə olan orta təhsil müəssisələrinin 43000 şagirdi arasında apardığı sorğunun nəticələri belədir [29]:

1. Şagirdlərin 59%-i test yoxlamalarında köçürdüklərini etiraf etmişdir.

2. Şagirdlərin 34%-i bu əməli iki dəfədən çox etdiklərini bildirmişdir.
3. Yuxarı sinif şagirdlərinin 1/3 hissəsindən çoxu tapşırıqları İnternetdən eyni ilə köçürdüyünü bildirmişdir.

Rutgers Universitində Donald MakKeyb tərəfindən 2002-2005–ci illərdə 63700 amerikalı tələbə və 9250 doktorant-tədqiqatçı arasında aparılmış sorğunun nəticələri belədir [27]:

1. 36% tələbə və 24% tədqiqatçı İnternet resurslarından dəyişməklə/köçürməklə istifadə etmiş, ancaq istinad verməmişdir;
2. 38% tələbə və 25% tədqiqatçı çap edilmiş mənbələrdən dəyişməklə/köçürməklə istifadə etmiş, ancaq istinad verməmişdir;
3. 14% tələbə və 7% tədqiqatçı biblioqrafiyada falsifikasiya və ya "yalançı mənbələr"dən istifadə etmişdir;
4. 7% tələbə və 4% tədqiqatçı çap edilmiş mənbələrdən eyni ilə köçürdüyünü etiraf etmişdir.

Plagiatlıqla mübarizə bəzən dövlət siyasəti səviyyəsində özünü büruzə verir. Məsələn, Almaniyanın Düsseldorf Universitetinin fəlsəfə fakültəsinin Elmi Şurası plagiatlıq faktı aşkarlandığı üçün təhsil naziri Annette Şavanın 1980-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasını ləğv edərək naziri elmi dərəcədən məhrum edib. Fakültə dekanı Bruna Blekmanın sözlərinə görə, Şura «Şəxsiyyət və vicdan» dissertasiyasında Şavanın sistematik olaraq istinad etmədən, başqalarının intellektual əməyinin nəticələrindən istifadə etdiyini təsbit edib. Bundan iki il əvvəl Almaniya müdafiə naziri Karl Teodor Qutenberq da oxşar vəziyyətlə üzləşdiyindən istefa verməli olmuşdu.

Plagiatlıqla mübarizə keçmiş Sovetlər Birliyinə daxil olan ölkələrdə nisbətən ağrılı keçir. Burada "administrativ" plagiatlıq faktları yalnız "müxalifət" tərəfindən xüsusi məqsədlər üçün aşkarlandığından, əksər hallarda diqqətdən kənarda qalır. Məs.,Washington Times qəzeti Vaşinqtondakı Brukin institutunun apardığı tədqiqatlara əsasən Rusiya Federasiyasının prezidenti Vladimir Putinin namizədlik dissertasiyasının müəyyən hissələrinin prof. Uilyam Kinq (William King) və Devid Kliland (David Cleland) tərəfindən yazılmış "Strateji planlaşdırma və siyasət" məqaləsindən eyni ilə köçürüldüyünü qeyd edir.

Lakin bəzi hallarda mübarizə öz bəhrəsini verir. Sondövrlərdə Rusiya Təhsil və Elm Nazirliyi plagiatlıq faktlarına görə bir çox alimlərin elmi dərəcələrini ləğv edib. Eyni proses bizim respublikamızda da baş verir: Ali Attestasiya Komissiyası tərəfindən Milli Aviasiya Akademiyasının nəzdində yaradılmış N.06.011 Dissertasiya Şurasında aparılmış araşdırmalar və təhlillər nəticəsində şuraya daxil olmuş 6 ədəd dissertasiyanın bir qismində plagiatlıq faktları aşkar edilmiş və nəticədə bu işlər müdafiədən kənarlaşdırılmışdır [17].

2003-2012-ci illərdə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən 30 nəşrin plagiat olması aşkarlanıb. Onlardan

1. elmi əsər – 6 nəşr,
2. ədəbi əsər – 5 ədəd,
3. lüğət – 2 ədəd,
4. ensiklopediya – 1 ədəd,
5. mətbuatla əlaqədar – 1 fakt.

Qalanları isə ali və orta məktəb dərsliyi, dərs vəsaiti və metodiki vəsaitdir. Ümumilikdə, plagiat dərsliklərin 95 faizini ali məktəb dərslikləri təşkil edir [17] .

**Plagiatlıqla mübarizə problemləri**

Hazırda İKT cəmiyyətin bütün təbəqələrində – adi məişətdən tutmuş insanların sosial, siyasi və digər fəaliyyətlərini də əhatə edir. Təbii ki, İKT də digər sahələr kimi həm texniki cəhətdən, həm də əhatə sahəsinə görə inkişaf edir, bu isə İKT vasitəsi ilə yayılan intellektual mülkiyyət formalarının (mətnlər, audio-video əsərlər, texnoloji işləmələr və s.) həddən çox müxtəlifliyinə səbəb olmuşdur. Belə halda hər növ mülkiyyət formalarına qarşı törədilmiş

plagiatlıq hadisəsinin qarşısı yalnız xüsusi üsulla-həmin növün xarakterik xüsusiyyətini nəzərə almaqla həyata keçirmək olar. Bu isə təbii olaraq plagiatlıqla mübarizənin qlobal müstəvidən lokal müstəviyə keçirir və əlavə çətinliklər yaradır.

Ayrı-ayrı sahələrdə baş verən plagiatlıq halları bəzən sahənin xarakterik xüsusiyyətinə görə İKT-nin təsir sahəsindən kənarda qalır. Məsələn, sovetlər dövründə nəşr edilən ədəbiyyatın çoxu hələ də elektron formaya keçirilmədiyindən, onların qanunsuz istifadəsi antiplagiat sistemləri tərəfindən identifikasiya edilə bilmir.

Qeyd edildiyi kimi, plagiatlığa cəmiyyətin bütün təbəqələrində rast gəlinir və məhz bu səbəbdən həm plagatlığın özü, həm də ona qarşı mübarizə sosial mahiyyət daşıyır. Bir çox hallarda plagiatlıq cəmiyyətdə adi qaydada qarşılanır və onun mövcudluğu hər iki tərəfi – həm prosesin icraçısını, həm də müəllifi narahat etmir (qəbul edilmiş və ya adiləşmiş plagiat).

Əksər hallarda qəbul edilmiş və ya adiləşmiş plagiat cəmiyyətdə olan və yaxud ayrı-ayrı şəxslərin maliyyə nöqteyi-nəzərindən problemləri olması səbəbindən meydana gəlir. Digər hallarda isə plagiatlıqla mübarizənin hüquqi və texniki bazasının zəifliyi bu istiqamətdə qeyri-qanuni hərəkətlərin artmasına imkan yaradır. Lakin bu şəbəkənin genişlənməsi artıq bu sahədə kölgə iqtisadiyyatının mövcudluğuna gətirib çıxarır ki, bu da plagiatlığa qarşı mübarizədə əsas problemlərdən biri olur. Nəticədə yaranmış vəziyyət plagiatlığın de-fakto müəyyənləşdirilməsində İKT-nin imkanlarının məhdudlaşdırılmasına səbəb olur. Burada qəbul edilmiş və ya adiləşmiş plagiat növlərinin mövcudluğunun səbəbi kimi xüsusi ilə cəmiyyətdə elmi etikanın zəif təbliği və ictimai qınağın olmamasını göstərmək olar.

Elmi etikanın prinsiplərinin pozulması nəticəsində baş verən plagiatlığın İKT vasitəsi ilə avtomatik olaraq identifikasiyası mümkün deyil. Məsələn, elmi etikanın prinsiplərinin pozulması cəmiyyətdə “razılaşdırılmış” plagiat – bu müxtəlif (rəhbər, dostluq, qohumluq və s.) səbəblərdən ideyalara qeyri-qanuni zəhmətsiz həmmüəlliflik növü yaranmışdır və yaxud iqdisadi, sosial və digər səbəblərdən cəmiyyətdə «sifarişli» plagiat – ideyalara müəyyən haqq ödəməklə müəllif və ya həmmüəllif olmaq praktikası mövcuddur. Cəmiyyətdə geniş yayılmış və qəbul edilmiş və ya adiləşmiş plagiat növü kimi qəbul edilən plagiatlıq “anonim” plagiat növüdür. Bu müxtəlif rəsmi və qeyri-rəsmi sənədlərin, təlimatların, göstərişlərin müəllif göstərilmədən istifadə edilməsi nəticəsində meydana gəlir. Bu növ əməlləri heç bir texniki-proqram vasitələri tətbiq etməklə aradan qaldırmaq mümkün deyil.

## Nəticə

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək plagiatlıqla mübarizənin aşağıdakı ümumi problemlərini qeyd edə bilərik:

- İM formalarının yayımlarının əhatə dairəsinin İKT-nin əhatə sahəsindən daha geniş olması səbəbindən İKT vasitəsi ilə plagiatlıqla mübarizədən kənar sahələrin mövcud olması;
- Təbliğatın və ictimai qınağın olmaması səbəbindən elmi etikanın prinsiplərinin pozulması nəticəsində baş verən plagiatlıq daha çox mental xüsusiyyətlər daşıdığı üçün onun identifikasiyası mümkün olmur;
- Plagiatlıqla mübarizənin hüquqi və texniki bazasının zəifliyi.

## Minnətdarlıq

Bu iş Azərbaycan Respuiblikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/20/1.

## Ədəbiyyat

1. İmanov K.S. Ümumdünya kitab və müəlliflik hüququ günü və Azərbaycan müəlliflik hüququ tarixindən / «Musiqi dünyası» jurnalı, 2000, №2.

2. İmanov K.S. İntellektual mülkiyyət hüquqlarının təminatı və müdafiəsi // «Musiqi dünyası» jurnalı, 2001, №1–2.
3. İmanov K.S. Müəllif – hüquq qanunvericiliyi ilə qorunan əlaqəli hüquqlar və onların əhəmiyyəti // «Hüquqi dövlət və qanun» jurnalı, 2001, №8.
4. İmanov K.S., İsayev N. Azərbaycanın müəllif - hüquq qanunvericiliyində şərikli müəlliflik // «Musiqi dünyası» jurnalı, 2000, №3–4.
5. İnteqral mikrosxemlərə münasibətdə intellektual mülkiyyət haqqında Vaşinqton müqaviləsi, 26 may 1989-cu il. http://www.referent.ru/1/30254.
6. İsayev N. Azərbaycanda müəllif hüquqlarının təminatı məsələləri // «Musiqi dünyası» jurnalı, 2002, №1.
7. İsayev N. İntellektual mülkiyyət anlayışı və onun huquqi qorunma sistemi // «Musiqi dünyası» jurnalı, 2001, №3–4.
8. MediaWiki: www.mediawiki.org
9. Большой энциклопедический словарь. М.:АСТ, Астрель, 2008, 1248 с.
10. БСЭ Онлайн-версия. http://bse.sci-lib.com
11. İmanov K.S. Heydər Əliyevin irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir // "Respublika" qəzeti, 9 may, 2013, №98, s.6, 8. http://www.respublica-news.az/2013/05/09/43359/index.html.
12. Wikipedia: www.wikipedia.org.
13. Абдуллин А.И. Правовая охрана баз данных в Европейском союзе // Журнал международного частного права, 1997, №2, с.24–41.
14. Зеленков Ю.Г., Сегалович И.В. Сравнительный анализ методов определения нечетких дубликатов для Web-документов // Труды 9-й всероссийской научной конференции «Электронные библиотеки: перспективные методы и технологии, электронные коллекции» – RCDL'2007, Переславль-Залесский, Россия, 2007.
15. Мюллер П. Охрана изобретений и дизайна в Германии. М., 1995, 97 с.
16. http://www.azstand.gov.az
17. www.copag.gov.az
18. https://ru.wikipedia.org/wiki/ .
19. https://ru.wikipedia.org/wiki/Journal_des_savants.
20. Честной А., Сургучева С. Патент – это не лицензия на охоту // Интеллектуальная собственность, 1996, №3–4, с.3.
21. Avroasiya patent konvensiyası, 1994. http://www.eapo.org/ru/documents/ norm/instrconv_txt.html.
22. Avroasiya patenti verilməsi haqqında konvensiya, 1973. http://www.rupto.ru/rupto/nfile/e6280dce-305a-11e1-351c-9c8e9921fb2c/exhibition _corr_ormatted.pdf.
23. Elmi kəşflərin beynəlxalq qeydiyyatı haqqında Cenevrə müqaviləsi, 7 mart 1978-ci il. http://ross-nauka.narod.ru/08/08-jenev-dogovor.html.
24. Fonoqram istehsalçılarının maraqlarının qorunması haqqında konvensiya, 1971. http://elementy.ru/Library9/ConvFono.htm.
25. http://www.wipo.int/export/sites/www/freepublications/ru. /general/1007/wipo_pub_1007_2011.pdf.
26. Məmulatların mənşəyinin və beynəlxalq qeydiyyatının qorunması haqqında Lissabon razılaşması, 1958. http://www.wipo.int/lisbon/en/general/.
27. http://logic.pdmi.ras.ru/~yura/detector/.
28. http://www.britannica.com/EBchecked/topic/462640.
29. http://www.washingtontimes.com/news/2006/mar/24/20060324-104106-9971r/?page=all.
30. Patent kooperasiyası haqqında müqavilə, 1970. http://www.wipo.int/treaties/ru/registration/pct/.

**УДК 001.95**

**Алгулиев Расим М.[1], Агаев Надир Б.[2], Алыгулиев Рамиз М.[3]**
Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
[1]rasim@science.az, [2]nadir_avia@yahoo.com,[3]a.ramiz@science.az

**Научные и технологические принципы борьбы с плагиатом: эволюционный путь и современное состояние**

В статье наряду с историческим развитием общества исследован процесс плагиата, проанализированы пути и средства защиты интеллектуальной собственности в разные периоды развития человечества. Исследованы современное состояние борьбы с плагиатом, ее правовые и технологические аспекты, определены основные проблемы и стратегические направления борьбы с ним.

***Ключевые слова***: *интеллектуальная собственность, авторское право, патентное право, анонимный плагиат, заказной плагиат.*

**Rasim M. Alguliev [1], Nadir B. Agayev [2], Ramiz M. Aliguliyev [3]**
Institute of Information Technology of ANAS, Baku, Azeribaijan
[1]rasim@science.az , [2]nadir_avia@yahoo.com,[3]a.ramiz@science.az

**Scientific and technological principles of fighting plagiarism: an evolution path and state of the art**

In the paper along with the historical development of society a plagiarism is investigated; in different periods of human development the ways and means of protecting of intellectual property are analyzed. The state of the art of fighting plagiarism and its legal and technological aspects are investigated; key issues and strategic directions of fighting plagiarism are identified.

***Keywords***: *intellectual property, copyright, patent rights, anonymous plagiarism, bespoke plagiarism.*